# Şuşanın dirçəlişi



**2020-ci il 8 noyabr...** Artıq noyabr ayının əvvəllərindən döyüşlər Şuşa istiqamətində gedirdi. Azərbaycanın Xüsusi Təyinatlı Dəstələri keçilməz hesab edilən dağları aşaraq Şuşaya daxil oldular. Azərbaycan Respublikası Müdafiə Nazirliyinin yaydığı məlumatda deyilirdi ki, döyüş əməliyyatları müxtəlif intensivlikdə davam edir. Düşmən cəbhənin bəzi sahələrində şəxsi heyət və hərbi texnikada itkilər verərək geri çəkilib. Xalq Prezidentindən, Ali Baş Komandandan daha xoş müjdə eşitmək istəyirdi...

Nəhayət, noyabrın 8-i Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva Fəxri Xiyabana gəldilər, sonra Şəhidlər Xiyabanını ziyarət etdilər. Ölkənin televiziya kanalları o anı canlı yayımlayırdı. İnsanlar həyəcan içərisində idi. Dəqiqələr, saniyələr ötür, bir an adama bir il qədər uzun görünür. Dövlət başçısı xalqına müraciət edir: "İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır...".

*Əziz Şuşa, sən azadsan!*
*Əziz Şuşa, biz qayıtmışıq!*
*Əziz Şuşa, biz səni dirçəldəcəyik!*

Bəli, düz 28 il yarım əvvəl 1992-ci il may ayının 8-də Şuşanın işğalı Birinci Qarabağ müharibəsinin məğlubiyyət anı kimi tarixə yazılmışdı. İndi Şuşanın azad edilməsi ilə İkinci Qarabağ müharibəsinin taleyi həll olundu. Qarabağ xanlığının paytaxtı, Qarabağın inzibati mərkəzi olan qədim Şuşa azadlığına qovuşdu. Dövlət başçısı Şuşanın azad edilməsində qəhrəmanlıq göstərmiş Azərbaycan Silahlı Qüvvələrinin bütün şəxsi heyətini təbrik etdi, Ordumuzun bu Zəfərinin təməlində dayanan başlıca amilləri sadaladı: iqtisadi müstəqillik, milli birlik və beynəlxalq səviyyədəki uğurlar. Prezident dedi: "Biz sübut etdik ki, Dağlıq Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır və bu məsələ beynəlxalq hüququn norma və prinsipləri əsasında öz həllini tapmalıdır. Dünyanın bütün aparıcı təşkilatları, bütün beynəlxalq təşkilatları Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ədalətli qətnamələr, qərarlar qəbul ediblər. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi, BMT Baş Assambleyasının qətnamələri, Avropa Parlamentinin qətnamələri və digər beynəxalq təşkilatların qərar və qətnamələri birmənalı şəkildə Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıdı". Prezident çıxışını bu sözlərlə yekunlaşdırdı: "Bizim Zəfər yürüşümüz davam edir. Hələ də işğal altında torpaqlar var, hələ də döyüşlər gedir. Əgər Ermənistan rəhbərliyi mənim tələblərimə cavab verməsə, sona qədər gedəcəyik...".

## Gözəlim, qala şəhərim...

Şuşa qalası... əsrlərin yadigarı, Azərbaycanın Qarabağ xanlığının paytaxtı. Qarabağ xanlığının əsasının qoyulması və Şuşa şəhərinin onun paytaxtına çevrilməsi Pənahəli xanın (1748-1763) adı ilə bağlıdır. Qarabağ xanı Pənahəli xan Cavanşirlər tayfasının Sarıcalı oymağından idi. Bu Azərbaycan tayfası Qarabağın qədim sakinlərindən olmuş və uzun müddət bölgənin ictimai-siyasi həyatında mühüm rol oynamışdır. Şuşa qalasının salınması 1750-1751-ci illərdən hesab edilir. Tarixi mənbələrə görə, 1750-ci ildə hündür, sıldırım dağ üstündə qalanın inşasına başlandı və 1756-1757-ci illərdə tikilib başa çatdırıldı. Qarabağ xanı Pənahəli xan Şuşanı paytaxt elan edib oranı möhkəmləndirmiş, qala-şəhərə çevirmişdi.

XVIII əsrin ikinci yarısından Azərbaycanın mühüm, strateji əhəmiyyətli şəhərlərindən birinə çevrilən Şuşa, həm də ölkənin qədim tarixə malik olan şəhər mədəniyyətinin nadir və təkrarsız incilərindən biri idi. Həmin dövrdə Şuşa özünün xalçası, ipəyi, parçası və çini qabları ilə dünya bazarları miqyasına çıxmış və bununla da böyük şöhrət qazanmışdı. Şəhərin dövrəsinə möhtəşəm qala divarlarının çəkilişi XVIII əsrin 80-ci illərində başa çatdırıldı. Bu dövrdə şəhərdə çoxsaylı sənətkar məhəllələri yaranır, ticarət daha sürətlə inkişaf edirdi. XVIII əsrin əvvəllərində artıq Şuşada çoxlu sayda manufakturalar, 2 mindən çox sənətkar fəaliyyət göstərirdi.

1903-cü ildə Tiflisdə nəşr olunmuş "Vestnik Kavkaza" jurnalının 43-cü səhifəsində göstərilirdi ki, "Şuşanın görünüşü orta əsr Avropa şəhərlərini xatırladır. Bu şəhərin tacirləri ipək-barama alverində üstün mövqeyə malik olub, Tiflis, Moskva və Marsel şəhərləri ilə birbaşa ticarət əlaqəsi saxlayırlar".

1868-ci il 24 may tarixli nömrəsində "Qafqaz" qəzetinin icmalçısı yazırdı: "Şuşa gündən-günə yox, saatdan-saata böyüyür, onun ticarəti inkişaf edir, şəhər əhalisi varlanır. Buraya hər tərəfdən dəstə-dəstə adam axışıb gəlməkdədir".

1873-cü ildə Vyana şəhərində açılmış beynəlxalq sərgidə Şuşa sənətkarları da iştirak etmiş və onların sərgidə nümayiş etdirdikləri eksponatlar xaricilərdə dərin maraq oyatmışdı.

Bununla yanaşı, Şuşanın gözəl təbiəti, coğrafi mövqeyi, xüsusilə çox mühüm strateji əhəmiyyətli qala olmasını bir sıra tədqiqatçılar da dəfələrlə bildirmişlər. Məşhur klimatoloqlar dəniz səthindən 1403 metr hündürlükdə yerləşən mühüm əhəmiyyətli şəhərin iqlim şəraitini, fauna və florasını dəqiq yoxladıqdan sonra mülayim təbiətli Şuşanın böyük müalicəvi əhəmiyyətli bir şəhər olduğunu da söyləmişdilər. Şəhərdən cənubda, 18 kilometr aralı "Turşsu" deyilən səfalı guşədə mədən suyunun çıxması da alimlərin mülahizəsini doğrultdu. Şuşa havasının təmizliyi, saflığı və müalicə əhəmiyyəti baxımından kurort şəhəri kimi tanınmışdır. Bu baxımdan, nəinki Azərbaycanda, onun hüdudlarından kənarda da Şuşa öz səfalı yerləri, istirahət guşələrinə görə məşhur idi.

Şuşanın gözəl mənzərəsi və uca dağlar qoynunda yerləşməsi səyyahları heyran edir, onları vəcdə gətirirdi. Məşhur rəssam V.Vereşyagin Şuşanı görəndən sonra belə yazıb: "Bu şəhərin evləri düzgün formalı, qəşəng və hündür olub, çoxsaylı və gözəl pəncərələrlə işıqlandırılır. Qayalıqlar qoynunda yerləşən bu şəhər elə həmin qayalıqlardan götürülən daşlardan tikilib. Şəhərin bütün küçələrinə enli daş plitələr döşənib, evlərin damları tirlərdən düzəldilib".

Bir sözlə, Şuşa hər zaman gözəlliyi ilə seçilib...

## Köksün altı sarıbülbül

Xarıbülbül... Şuşanın vizit kartı. Çiçəkmidir, adi çiçək deyil, möcüzədir xarıbülbül. Haqqında təsəvvür yaratmaq üçün onu görmək gərəkdir. Heç ətri də yoxdur, xırda bənövşəyi rəngli ləçəkləri otların, başqa güllərin-çiçəklərin içərisində çox çətinliklə seçilir. Rəvayətə görə, bir zamanlar bütün bitkilər insanlar kimi danışır, sevə bilirmiş. Sevinib gülə bilirmişlər. Bülbül o zamanlar gülü sevir, bütün gül-çiçəklər də bu məhəbbəti alqışlayır. Hər gün sübh tezdən bülbül gülün üstünə qonub ona məhəbbət mahnısı oxuyar, digər güllər də rəqs edərmiş, xar bu məhəbbətə dözə bilmir, qısqanır. Gül xarı rədd etməyə çalışır, əsəbiləşən xar onun bir ləçəyini yeyir. Gülün solduğunu görən digər güllər Allaha yalvarırlar ki, onların canını alsın, amma güllə bülbülün eşqinə qıymasın. Onların ah-naləsi qəbul edilir, hamısı, sadəcə bitkiyə çevrilir, gül, bülbül və xar üçlükdə bir çiçəyə dönür. Xarıbülbül o zaman söz verir ki, bundan sonra yalnız güllərin fədakarlıq göstərib bitkiyə çevrildikləri yerdə bitəcək. Belə də olur. Xarıbülbülə bitkiyə çevrildiyi Şuşa torpağından başqa, dünyanın heç bir yerində rast gəlmək mümkün deyil. Alovlu, vətənpərvər, gözəl şairə Ağabəyim ağanın Vətən həsrətini, qəriblikdə çəkdiyi əzabları yüngülləşdirmək üçün saldırdığı bağda da bitmir, xarıbülbül:

*Vətən bağı al-əlvandır,*
*Yox içində xarıbülbül...*

Vətəndə, qərib, küskün olan xarıbülbül, indi daha şux, daha gözəl, daha parlaqsan, çünki azadsan. Çünki azad Şuşamla qol-boyunsan...

Şuşa şəhərinin Azərbaycan üçün müstəsna əhəmiyyət kəsb etdiyini vurğulayan Prezident İlham Əliyev bildirirdi ki, yarıdağılmış tarixi abidələrimizin bərpasında çox həsas olmalı, ancaq o tarixi abidələrimizin əsl simasını bərpa etməliyik. Vaxt itirmədən, ancaq, eyni zamanda, tələsmədən Şuşanın ilkin, tarixi simasının bərpa edilməli olduğunu bildirən Azərbaycan Prezidenti Şuşa şəhərini Azərbaycan mədəniyyətinin paytaxtı elan edərək demişdir: "Şuşa şəhəri buna layiqdir. Hesab edirəm ki, nəinki Azərbaycanın, bölgənin mədəni paytaxtı sayıla bilər. Şuşanın mədəni həyatı zəngin olmalıdır". Bununla yanaşı, dövlət başçısı vaxtilə Vaqif poeziya günlərinin ənənəvi olaraq keçirildiyini vurğulayaraq diqqətə çatdırmışdır ki, Şuşada Vaqif poeziya günləri, "Xarıbülbül" festivalı bərpa olunmalıdır.

2021-ci il martın 16-da Şuşaya ikinci səfərində Azərbaycan Prezidenti Cıdır düzündə Novruz bayramını qeyd edərkən də qürurla söyləmişdi: "Şuşa, sən azadsan!"

2020-ci il 12 may... O gün xarıbülbülün bayramıydı, çünki 29 ildən sonra yenə onun ətrafına, işığına "Xarıbülbül" musiqi festivalına toplaşmışdıq. Azad edilmiş torpaqlarda ilk musiqi bayramıydı.

Prezident "Xarıbülbül" festivalının keçirilməsi münasibətilə Azərbaycan xalqını təbrik edərək dedi: "Biz bu günü 30 il səbirsizliklə gözləmişik, 30 il Vətən həsrəti ilə yaşamışıq. 30 il ədalətsizliklə barışmalı olurduq, amma barışmırdıq və hər dəfə deyirdik ki, bu vəziyyətlə biz heç vaxt barışmayacağıq, nəyin bahasına olursa-olsun öz doğma torpaqlarımızı işğalçılardan azad edəcəyik və bunu etdik. "Xarıbülbül" musiqi festivalı şəhidlərimizin əziz xatirəsinə həsr olunub. Biz bu günü bizim qəhrəman hərbçilərimizə borcluyuq, Azərbaycan xalqına borcluyuq. Xalq birləşdi, xalq həmrəylik göstərdi, bir yumruq kimi birləşdi və bu qələbəni Azərbaycan xalqı qazandı...".

2021-ci ilin iyununda Şuşada daha bir möhtəşəm tədbir düzənləndi. Qarabağın tacı, mədəniyyət paytaxtımız Şuşanın şahidliyi ilə Azərbyacan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında Şuşa Bəyannaməsi imzalandı. Şuşa görüşünü hər iki xalqın həyatında əlamətdar gün, tarixi hadisə adlandıran: "Bu səfərin tarixi əhəmiyyəti var. Çünki bu gün imzalanmış Birgə Bəyannamə - Müttəfiqlik haqqında Bəyannamə əlaqələrimizi ən yüksək zirvəyə qaldırır. Bəyannamənin adı Müttəfiqlik haqqında Bəyannamədir və bu ad öz-özlüyündə hər şeyi göstərir, hər şeyi deyir. Biz bu gün keyfiyyətcə yeni əlaqələr qurmuşuq və bu Bəyannamədə göstərilən bütün müddəalar bizim gələcək iş birliyimizin təminatçısıdır" - söyləyən Prezident İlham Əliyevin vurğuladığı kimi, Türkiyə və Azərbaycan arasındakı tarixi, mənəvi, ortaq etnik köklərə bağlılıq oxşar dilimiz, dinimiz, milli dəyərlərimiz, milli maraqlarımız, xalqlarımızın qardaşlığı, həmrəyliyi dünya miqyasında nadir əməkdaşlıq, iş birliyi, müttəfiqlik nümunəsidir və həmin gün Şuşada bu, bir daha təsdiqini tapdı.

"Bölgədə təsiri olan hər kəsi həqiqətləri görməyə, Azərbaycan xalqının Zəfərini qəbul etməyə və gələcəyə baxmağa dəvət edirik. Atəşkəs razılaşmasından sonra artıq bölgədə bütün tərəflər üçün yeni əməkdaşlıq imkanları yaranıb. Azərbaycanlı qardaşlarımın bu məsələdə son dərəcə istəkli olmalarının ən yaxın şahidiyik" - söyləyən Rəcəb Tayyib Ərdoğan bölgədə sabitliyi təmin edəcək Rusiya, Türkiyə, Azərbaycan, Ermənistan, Gürcüstan və İranın daxil olduğu altılı platformanın regiona sülh, firavanlıq gətirəcəyini qeyd etdi və bölgədəki yeni reallığa fayda vermək istəyən hər kəsi nifrət və təhrik siyasətindən əl çəkərək sülh və əməkdaşlığa təşviq edən sabitliyə qoşulmağa çağırdı.









> *Türk dünyasının mədəniyyət paytaxtı, dünya azərbaycanlılarının birləşdiyi məkan olan Şuşa bu gün mühüm beynəlxalq tədbirlərə ev sahibliyi etməklə həm də diplomatik mərkəzə çevrilir.*

Birləşmiş Millətlər Təşkilatı ilə Azərbaycan Respublikası arasında əlaqələrin qurulmasının 30 illiyinə həsr olunmuş tədbirin də məhz Şuşada keçirilməsi bir daha bu qədim, gözəl şəhərin xalqımız üçün əhəmiyyətini bütün dünyaya göstərdi. Bu tədbir Vətən müharibəsindən sonra yaranmış reallıqların dünya tərəfindən qəbul edilməsinin təsdiqi, nümayişi idi.

Aprelin 22-23-ü tarixlərində Dünya Azərbaycanlılarının V qurultayının Şuşada keçirilməsi ideyasının müəllifi olan Azərbaycan Prezidenti İlham Əliyev onu Zəfər Qurultayı adlandırdı. Bəli, Vətən müharibəsindən sonra Şuşaya çəkilən Zəfər yolu xaricdə yaşayan soydaşlarımızın yoluna işıq salıb onları mədəniyyət paytaxtımıza topladı, daha bir Zəfər bayramı yaşandı. Prezidentin dediyi kimi, axı: "Zəfər xalqımıza çox yaraşır...".

## Biz səni dirçəldirik, Şuşa!

"Şuşanın bərpası bütün digər azad edilmiş torpaqlarla yanaşı, əlbəttə ki, prioritet olmalıdır. Azərbaycan xalqı da bu yanaşmanı təqdir edir. İndi Şuşada artıq bərpa işləri gedir, bəzi tarixi abidələr bərpa edilib..." - söyləyən Azərbaycan Prezidenti, Vətən müharibəsindən sonra Şuşanın "Azərbaycanın mədəniyyət paytaxtı" elan edilməsi ilə əlaqədar Sərəncam imzaladı. Dövlət başçısının Şuşanın yaradılmasının 270 illiyi münasibətilə 2022-ci ili "Şuşa ili" elan etməsi də hamının ürəyincə oldu.

Bu qərar tarixi, siyasi və mənəvi baxımdan mühüm əhəmiyyətə malikdir. Dövlət başçısı bu addımı atmaqla üç strateji hədəfə çatmağı qarşıya məqsəd qoyub. Birinci hədəf Qarabağın tarixini dünya ictimaiyyətinə yeni formalarla çatdırmaqdır. 2022-ci ilin "Şuşa ili" elan olunması bu baxımdan yaxşı fürsətdir. Belə ki, il ərzində bütün qurumlar Şuşa şəhərinin 270 illik yubileyini qeyd edəcək, tədbirlər keçiriləcək. Bu tədbirlərə dəvətli olan xarici nümayəndələr Azərbaycanın reallıqlarını görəcək və ölkəmiz haqqında həqiqətlərin dünyaya çatdırılmasına təsir edəcəklər. Şuşanın yaranması, onun Qarabağın, bütövlükdə Azərbaycanın iqtisadi, mədəni həyatında oynadığı rol, işğal dövründə məruz qaldığı dağıntı, vandallıq, ordumuzun şəhəri işğaldan azad edərkən göstərdiyi misilsiz qəhrəmanlıqlar və digər vacib məsələlər haqqında məlumat veriləcək. İkinci hədəf, Qarabağda quruculuğu və işğaldan azad edilmiş ərazilərə qayıdışı sürətləndirəcək. Üçüncü hədəf, Qarabağın təhlükəsizliyini gücləndirmək və ətraf ərazilərdə yaşayan əhalinin reinteqrasiyasını stimullaşdırmaqdır. TÜRKSOY-un 2023-cü ildə Şuşanın "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilməsi ilə bağlı qərarı da qürurverici hadisədir.

Azad olunmuş ərazilərdə başlanılmış genişmiqyaslı bərpa işləri davam etdirilir. Şuşada da bu işlər intensiv şəkildə aparılır. Belə ki, Yuxarı Gövhərağa məscidi artıq bərpa olunub. 1768-1769-cu illərdə inşa edilmiş Yuxarı Gövhərağa məscidi də işğal dövründə erməni vandalizminin qurbanı olmuşdu. Ötən il Ramazan bayramı ərəfəsində Şuşada yeni möhtəşəm məscidin təməli qoyulub. Ermənilərin işğalı altında olduğu dövrdə qurudulmuş "Xan qızı Natəvan" bulağı bərpa olunub. Burada bütün işlər tarixlə müasirliyin vəhdəti prinsipi üzərində aparılır. Baş plana əsasən 3-5 mərtəbəli yaşayış binalarının salınması Şuşanın qədim memarlıq quruluşuna tam uyğun olacaq. Bu isə Şuşanın həm ənənəvi məhəllə formasını, həm də spesifik memarlıq üslubunu qoruyub saxlamağa imkan verəcək. Bir sözlə, yeni Baş plan qədim və müasir Şuşanı təsəvvürümüzdə canlandırır.

Şuşada artıq "Şuşa" yarımstansiyası fəaliyyət göstərir. Xatırladaq ki, Şuşa şəhərinin Azərbaycanın ümumi enerji sisteminə qoşulması, şəhərin etibarlı, dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təchiz edilməsi məqsədilə 2020-ci ilin dekabrında "Şuşa" yarımstansiyasının və Füzuli rayonunun "Şükürbəyli" yarımstansiyasından başlayaraq 75 kilometr məsafədə 110 kilovoltluq "Şükürbəyli-Şuşa" hava elektrik verilişi xəttinin tikintisinə başlanılmışdı. Yarımstansiya və elektrik verilişi xəttinin tikintisinin çətin coğrafi şəraitdə aparılmasına baxmayaraq, iş qısa zaman ərzində yekunlaşdırıldı. Füzulidəki, "Şükürbəyli" yarımstansiyasından Şuşaya 110 kilovoltluq ikidövrəli elektrik verilişi xətti çəkilişi fasiləsiz, növbəlilik prinsipi ilə 73 günə icra olunmuşdur ki, bu da nəinki Azərbaycan energetikası, regionun energetika tarixində rekorddur.

Şuşa Zəfərindən dərhal sonra şəhərdə infrastrukturun qurulması ilə yanaşı, tarix və mədəniyyət abidələrinin bərpasına başlanılmış, quruculuq işlərinin təşkilində çevikliyin, səmərəliliyin təmin olunmasına böyük diqqət yetirilmiş, Şuşa şəhəri Dövlət Qoruğu İdarəsi yaradılmışdır. Bir sözlə, şəhərin əsl tarixi simasının bərpası yönündə nəhəng layihələr reallaşdırılır. Qısa müddətdə Şuşanın Baş planının hazırlanması, Molla Pənah Vaqifin büstünün, məqbərəsinin öz ilkin görkəminə qaytarılması Bülbülün ev-muzeyinin və Üzeyir Hacıbəylinin heykəlinin açılışları, habelə, buradakı tarixi, dini və memarlıq abidələrinin bərpası prosesi ölkəmizin mədəniyyət paytaxtındakı kompleks işlərin tərkib hissəsidir.

Düşmənin Şuşada dağıtdığı su xətləri də bərpa edilib. Şuşada suya olan tələbatın ödənilməsi istiqamətində də işlər görülür. Hazırda Şuşada davam edən abadlıq-quruculuq işləri ilə əlaqədar suya tələbat da artıb. Yay aylarında əlavə su tələbatını təmin etmək üçün "Azərsu" ASC Şuşa şəhərində müvəqqəti su anbarı yaradır və ən qısa zamanda nasos stansiyası inşa ediləcək. Bununla da şəhərə əlavə su gətiriləcək. Su anbarı Zarıslı çayı üzərində qurulacaq ki, bu da Şuşanın dayanıqlı su təminatına kömək edəcək. Şəhərin əhalisinin suya tələblərinin ödənilməsi üçün Zarıslı və Kirs su mənbələrindən istifadə edilir. Dövlət başçısının dediyi kimi, azad edilmiş ərazilərdə içməli su mənbələrinin layihələndirilməsi işləri sürətlənib. Burada Şuşa şəhərinin içməli su layihəsi prioritetdir, çünki artıq Şuşada yaşayış bərpa olunub. Hazırda yeni yaşayış binalarının tikintisi onu göstərir ki, deməli, insanlar tezliklə qayıdacaqlar.

Bu ilin birinci rübünün yekunlarına həsr olunmuş müşavirədə Prezident İlham Əliyev demişdir: "İndi digər tarixi abidələrin bərpası gedir. Bəzi təkliflər, eskizlər var və əlbəttə ki, biz Şuşanın tarixi simasını bərpa etməliyik. Hər hansı bir tarixi memarlıq ansambla xələl gətirə biləcək başqa layihə orada icra edilməməlidir. Şuşada yeni teleqüllənin təməli qoyuldu və yəqin ki, yaxın gələcəkdə layihə təqdim ediləcək... 960 şagirdlik məktəb, 90 çarpayılıq xəstəxana inşa edilir. Bu layihələrin təməli qoyuldu. Keçmiş poçt binasında "ASAN xidmət", DOST mərkəzi və əhaliyə xidmət göstərən digər qurumlar yerləşəcək. Poçt binası memarlığı saxalanılmaq şərti ilə əsaslı şəkildə təmir olunacaq".

İndi Heydər Əliyev Fondu tərəfindən 3 məscid bərpa edilir, eyni zamanda yaxın aylarda yeni məscidin inşasına başlanacaq. Yeni tikiləcək məscidin də təməli qoyulub.

May ayında "Xarıbülbül" musiqi festivalının keçirilməsi planlaşdırılır. Keçənilki festivalda Azərbaycanda yaşayan xalqlar öz mədəniyyətlərini nümayiş etdirmişdilər, builki festivalda dünyanın müxtəlif ölkələrindən folklor kollektivlərinin iştirakı gözlənilir.

Mayın 5-dən 8-dək Şuşada Birinci Beynəlxalq Kulinariya Festivalı keçiriləcək. Burada Azərbaycan və dünya mətbəxindən nümunələrin təqdimatı olacaq.

2021-ci il avqustun 30-da Şuşada keçirilən "Vaqif Poeziya Günləri"nin rəsmi açılışında ölkə başçısı demişdir: "Bu gün ölkəmizin həyatında çox əlamətdar bir gündür. Biz böyük Azərbaycan şairi, dövlət xadimi, Qarabağ xanının vəziri Molla Pənah Vaqifin məqbərəsinin önündə Vaqif Poeziya Günlərinin açılışını qeyd edirik... Noyabrın 8-də Azərbaycan xalqına Şuşa müjdəsini verərkən demişdim ki, Şuşa artıq azaddır, bu həqiqətdir... Demişdim ki, biz Şuşanı dirçəldəcəyik. Bu da baş verir, biz Şuşanı dirçəldirik...".

Prezident onu da vurğulamışdı ki, Şuşada bundan sonra daha çox tədbirlər keçiriləcək. Bəli, bu da həqiqətdir. Şuşa artıq beynəlxalq səviyyəli tədbirlərə evsahibliyi edir.

Bu günlərdə ADA Universitetində keçirilən "Cənubi Qafqaz: İnkişaf və əməkdaşlıq" mövzusunda beynəlxalq konfrans "Beynəlxalq Şuşa Forumu" kimi yeni ad altında təşkil edilmişdi. Tədbirə dəvət olunan xarici iştirakçılar Azərbaycan mədəniyyətinin incisi Şuşa şəhərinə səfər etmiş, görüş zamanı tədbir iştirakçıları Şuşada olduqlarından məmnunluq ifadə etmiş, maraqlı fikirlər səsləndirmişlər. Fransanın "Musulmans en Franc" və "La Gazette" jurnallarının baş icraçı direktoru Jan-Mişel Brön demişdir: "Mən hesab edirəm ki, qələm çox vaxt silahlardan daha effektivdir. Fransa və Azərbaycan iki yüksək mədəniyyətə sahib ölkələrdir. Şuşa və Paris möhtəşəm mədəni paytaxtlardır..."

Elə bu fikirdən çıxış edərək deyirik: Şuşa Azərbaycan mədəniyyətinin paytaxtı kimi bu adı doğruldacaq, evsahibliyi etdiyi forumlar Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması üçün sülh gündəliyinin müzakirəsi baxımından əlverişli imkan yaradacaq...

Bundan sonra da belə olacaq. Qarabağın ürəyi yenə də Şuşada döyünəcək, Şuşa öz gözəlliyi ilə öyünəcək. Xarıbülbülün Şuşaya sevgisi azalmayacaq, vəfasına sadiq qalıb, başqa torpaqlarda bitməyəcək. Ağabəyim ağanın "Bülbül" rədifli gəraylısına şair Nüsrət Kəsəmənlinin "Yaddan çıxmaz Qarabağ" poemasında şairənin dilindən yazdığı misralarda deyildiyi kimi:

*Bir dürr idim, düşüb itdim,*
*Ağlayıb nəğmələr ötdüm,*
*Bu torpaqlarda nə mən bitdim,*
*Nə vəfalı Xarıbülbül!..*

**Zümrüd QURBANQIZI,**
**"Respublika".**